2019-cu ilin yanvar-may aylarında muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala 399082 min manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,1 faiz çoxdur. Tikinti-quraşdırma işlərinə qoyulan vəsait əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,4 faiz artaraq 382752 min manat olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş vəsaitin 95,9 faizini təşkil edir.

2019-cu ilin yanvar-aprel aylarında muxtar respublikada tikinti sahəsində 10496 nəfər işçi çalışmışdır ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur. Tikinti sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2018-ci ilin müvafiq dövrünə nisbətən 1,7 faiz artaraq 463,5 manat olmuşdur.